# DÖRDÜNCÜ SƏNAYE İNQİLABI

Klaus Şvab



**Professor Klaus Şvab** Beynəlxalq İctimai-Özəl Əməkdaşlıq Təşkilatı olan Dünya İqtisadi Forumunun Qurucusu və İcraçı Sədridir. O, 1998-ci ildə Sosial Sahibkarlıq üzrə Şvab Fondunu, 2004-cü ildə Gənc Qlobal Liderlər Forumunu, 2011-ci ildə isə Qlobal Tərtibçilər Cəmiyyətini qurmuşdur. Fribourg Universitetində iqtisadiyyat üzrə doktor (summa cum laude), Texnologiya üzrə İsveçrə Federal İnstitutunda mühəndislik üzrə doktor, Harvard Universiteti Con Kennedi adına Dövlət İdarəetməsi Məktəbində isə İctimai İdarəetmə üzrə magistr elmi dərəcələrini qazanmışdır. 1972-ci ildə Cenevrə Universitetinin ən gənc professorlarından biri olmuşdur. Şvab, çoxlu sayda beynəlxalq və milli səviyyəli mükafatlara layiq görülmüşdür.

© 2016 Dünya İqtisadi Forumu

© 2020 Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

Bu kitabı yazmaqda əsas məqsədim dördüncü sənaye inqilabının nə olduğu, hansı yenilikləri gətirəcəyi, bizə necə təsir göstərəcəyi və onu ümumi faydamıza çevirmək üçün nələr edilə biləcəyi haqqında ilk əsəri ortaya qoymaqdır. Kitab gələcəyə maraq göstərənlər, dünyanı daha yaxşı bir vəziyyətə gətirmək naminə özlərini bu inqilabi dəyişikliyin yaratdığı fürsətlərdən istifadəyə həsr etmiş insanlar üçündür.

Mənim üç əsas məqsədim var:

- Texnoloji inqilabın və onun çoxtərəfli təsirlərinin əhatəliliyi və sürəti ilə bağlı maarifləndirməni artırmaq;
- Texnoloji inqilab haqqında düşünmək üçün əsas məsələlərə və mümkün reaksiyalara aydınlıq gətirən bir çərçivə müəyyənləşdirmək;
- Texnologiya ilə bağlı məsələlər haqqında dövlət-özəl sektor əməkdaşlığını və tərəfdaşlığını canlandıracaq bir platforma təqdim etmək.



Dördüncü sənaye inqilabı, bəşəriyyətin əvvəllər təcrübədən keçirdiyi heç nəyə bənzəmir. Yeni texnologiyalar fiziki, rəqəmsal və bioloji aləmləri həm böyük ümid, həm də potensial təhlükə yaradacaq şəkildə birləşdirir. Bu inqilabın sürəti, əhatə dairəsi və dərinliyi bizi ölkələrin necə inkişaf etdiyi, təşkilatların necə dəyər yaratdığı və hətta insan olmanın nə demək olduğu haqqında yenidən düşünməyə məcbur edir.

Dünya İqtisadi Forumunun Qurucusu və İcraçı Sədri kimi Klaus Şvab 40 ildən çoxdur ki, qlobal fəaliyyətlərin mərkəzindədir. Dünya liderlərinin rəqəmsal inqilaba necə yönəldiyini yaxından müşahidə edən Şvab, daha da həyəcanlı və çətin bir dövrün başlanğıcında olduğumuza inanır.

“Dördüncü Sənaye İnqilabı” kitabında Şvab, yeni texnoloji inqilabın əsas xüsusiyyətlərini təsvir edir və yaratdığı imkanları və dilemmaları vurğulayır. Daha da önəmlisi, dördüncü sənaye inqilabının bizim olmasının və bizim nəzarətimizdə baş verməsinin yollarını araşdırır.

Şvab, pozitiv, ortaq bir hekayə ilə yanaşı, yeni əməkdaşlıq və idarəetmə formalarının dördüncü sənaye inqilabını hamının xeyrinə olacaq şəkilə gətirmənin yollarını açıqlayır. İnnovasiya və texnologiyanın insanlara xidmət etdiyi bir gələcək yaratmaq naminə kollektiv məsuliyyətimizi dərk edərsək, bəşəriyyəti əxlaqi şüurun yeni səviyyələrinə qaldıra bilərik.

WORLD ECONOMIC FORUM

COMMITTED TO IMPROVING THE STATE OF THE WORLD